HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 40 (903) 22 oktyabr 2021-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik

# Əbədiyyətdəki əziz ünvanlarımız - Şəhidlər ölməz, Vətən bölünməz!



Nahid Ağalarov



Zamanət İbrahimov

*Həyat nə qədər şirin olsa da, ölüm heç bir insan övladının qaça bilməyəcəyi tale yazısıdır. Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür, cismən bu dünyanı tərk edib, ruhən Yaradana - əbədiyyətə qovuşurlar. Ölümlərin ən şərəflisi də deyirlər buna. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmaz.*

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəmiz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın, Qarabağın azadlığıyla nəticələndi.

Müharibə varsa, şəhid də var, qazi də, itkin də... Nə yazıq ki, bu müharibəmiz də qurbanlarsız ötüşmədi. Azərbaycanın üç minə yaxın qəhrəmanı torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucaldı, minlərlə igid qazi adını qazandı. "525-ci qəzet" olaraq bu layihəmizdə mütəmadi şəkildə hissə-hissə həmin igidlərimizi oxucularımıza tanıtdıracağıq. Hər biri bir qəhrəmanlıq dastanı olan bu həyatlarla qürur duyur, onl[illegible] unutmayacağımıza, unutdurmayacağımıza söz veririk! Allah hər birinə rəhmət eləsin!

**Nahid Musa oğlu Ağalarov** 1983-cü il dekabrın 14-də Goranboy rayonu Xan Qərvənd kəndində anadan olub. Hərbi xidmətini 2002-2003-cü illərdə başa vuran Nahid 2014-cü ildən yenidən ordu sıralarına yollanır. O, Müdafiə Nazirliyinin N saylı Hərbi hisəsində MAXE vəzifəsində xidmət edirdi.

2018-ci ildə Tinatin xanımla ailə həyatı quran Nahidin Zəhra adlı qız övladı var.

Vətən müharibəsi başladığı andan ön cəbhədə döyüşlərdə canla-başla vuruşub, Xocavəndin azadlığı uğrunda savaşıb.

Son dəfə ailəsiylə 23 noyabrda danışıb. Qızı Zəhranı yoldaşına əmanət edib və elə həmin gün - 23 noyabr 2020-ci ildə Şuşa yolunda minaya düşərək şəhidlik zirvəsinə ucalıb.

Nahid Ağalarov şəhadətindən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Ayxan Fikrət oğlu Qədimov** 1999-cu il aprelin 30-da Şəmkir rayonunun Morul kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Azərbaycan Ordusunun əsgəri olan Ayxan Qədimov 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində iştirak edib. Bir çox hərbi əməliyyatlarda vuruşub. Noyabr ayının əvvəllərindən başlayan Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşan Ayxan Qədimov döyüş tapşırığını yerinə yetirərkən şəhidlik məqamına yüksəlib. Onun nəşi 30 noyabr 2020-ci ildə tapılaraq Şəmkir rayonunun Morul kəndində torpağa tapşırılıb.

Ayxan Qədimov şəhadətindən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Elnur Eldar oğlu Quliyev** 1984-cü il iyulun 25-də Füzuli rayonunda anadan olub. Onun əmisi - Nazim Quliyev Birinci Qarabağ müharibəsinin şəhididir. 1993-cü ilin avqustunda Füzuli rayonunun Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilməsindən sonra Quliyevlər ailəsi Beyləqan rayonunun Qəhrəmanlı qəsəbəsində yaşamağa başlayıb. Elnur da 1991-2001-ci illərdə Qəhrəmanlı qəsəbə tam orta məktəbində təhsil alıb. 2002-2006-cı illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Artilleriya" ixtisası üzrə ali təhsil alıb.

Elnur Quliyev 2006-cı ilin iyulundan 2007-ci ilin iyununa qədər Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində (TTM) "Yerüstü Artilleriya Tağım Komandiri" Kurslarında olub. 2007-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən N saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət edib. 2013-2015-ci illərdə Gədəbəy rayonunda yerləşən N saylı hərbi hissədə Bölüyün Komandiri, 2015-2019-cu illərdə isə Ağstafa rayonunda yerləşən N saylı hərbi hissədə Maddi-Texniki Təminat (MTT) Bölüyü Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifələrində xidmət edib.

Daha sonra o, Beyləqan rayonunda yerləşən hərbi hissələrdə xidmət edib. Elnur Quliyev həmin hərbi hissələrdə "mayor" hərbi rütbəsində Divizion Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib. Son olaraq Beyləqan rayonunda yerləşən N saylı Əlahiddə Kəşfiyyat Taborunda Tabor Komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət edib.

Mayor Elnur Quliyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı təxliyə rəisi vəzifəsinə təyin olunub. Amma vəzifəsinin cəbhədən geridə təxliyə prosesinin idarə edilməsi olmasına baxmayaraq, o, Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəxsən savaşıb. Füzuli rayonu ərazisində olan İlanlı dağına Azərbaycan bayrağını sancan birinci hərbçi olub. Elnur Quliyev oktyabrın 2-də Füzuli döyüşləri zamanı mühasirəyə düşən şəxsi heyətin xilas edilməsi üçün Tabor Komandiri və 4 nəfər döyüş yoldaşı ilə birgə döyüşə daxil olub. Ermənistan Ordusunun səngərinə daxil olaraq onların xeyli sayda canlı qüvvəsinin məhv edilməsində, həmçinin, şəxsi heyətin xilas edilməsində və Ermənistan Ordusunun irəliləməsinin qarşısının alınmasında fərqlənib. Döyüşlər zamanı Elnur Quliyev və Tabor Komandiri Orxan Əkbərov, həmçinin, digər dörd döyüş yoldaşı qəhrəmancasına şəhidlik zirvəsinə ucalıblar. Elnur Quliyev Füzuli rayonunda dəfn olunub.

Ailəli olan şəhidimizin Vətənə əmanət bir oğlu və bir qızı qalıb.

Elnur Quliyev şəhadətindən sonra "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

**Mətləb Vüqar oğlu Ələsgərov** 1999-cu il iyulun 18-də Ağstafa rayonunun Köçəsgər kəndində anadan olub. 2005-2016-cı illərdə A.Ələkbərov adına 2 saylı Köçəsgər kənd tam orta məktəbində, 2016-2020-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Qaz-neft mədən fakültəsində Neft-qaz qurğuları mühəndisliyi ixtisası üzrə təhsil alıb. 2020-ci ildə həmin fakültənin magistratura pilləsini qazansa da, hərbi xidmətlə əlaqədar təhsilini dondurub.

Nişanlı olan Mətləb Ələsgərov 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Mətləb Ələsgərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və oktyabrın 7-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhidlik məqamına ucalıb. Ağstafa rayonunun Köçəsgər kəndində dəfn olunub.

Mətləb Ələsgərov şəhadətindən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Zamanət Gülhəsən oğlu İbrahimov** 1989-cu il mayın 11-də Salyan rayonunun Sarvan kəndində anadan olub. 1997-2007-ci illərdə İ.Həsənov adına tam orta məktəbdə təhsil alıb.

Zamanət İbrahimov 2007-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2009-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edirdi. 2009-2011-ci illərdə Gəncə şəhərində yerləşən N saylı hərbi hissədə, 2011-2014-cü illərdə Göygöl rayonuda yerləşən N saylı hərbi hissədə, 2014-2017-ci illərdə Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə, 2017-ci ildən isə Naftalanda yerləşən N saylı hərbi hissədə xidmət edirdi.



Elnur Quliyev



Ayxan Qədimov



Mətləb Ələsgərov

Azərbaycan Ordusunun giziri olan Zamanət İbrahimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı şəhid olub. Salyan rayonunda dəfn olunub.

Zamanət İbrahimov şəhadətindən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

*Şahanə MÜŞFİQ*